Təsdiq edirəm
ADMİU-nun rektoru
__________Professor Ceyran Mahmudova
"12" "sentyabr" 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**7008003 – Sosial iş ixtisasının**
**Sosial xidmətlərin təşkili ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7008003 – Sosial iş ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı" na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə

dəyərləndirmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri- mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

**2.2.** Təhsil proqramının sonunda məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

- sosial proqram və layihələrin hazırlanması, monitorinqi və qiymətləndirilməsi sahəsində nəzəri və praktiki biliklərini tətbiq etmək;
- sosial xidmət sahəsində müvafiq qanunvericilik və etik prinsiplərə əsaslanaraq normativ sənədləri təhlil etmək və sosial xidmətlərin keyfiyyətinin artırılması istiqamətində inkişaf strategiyaları təklif etmək;
- sosial xidmət sisteminin hüquqi və institusional əsaslarına istinadən sosial siyasət və müdafiə mexanizmlərini planlaşdırmaq və idarə etmək;
- müxtəlif əhali qruplarının (uşaqlar, gənclər, yaşlılar, əlillər, aztəminatlı ailələr və s.) sosial ehtiyaclarını qiymətləndirərək uyğun xidmət modellərini müəyyən etmək;
- təcili və fövqəladə hallarda sosial xidmətlərin koordinasiyasını təmin etmək və psixososial dəstəyin təşkili üzrə resursları səmərəli bölüşdürmək;
- sosial təminat sahəsində qabaqcıl dünya təcrübəsinə əsaslanaraq Azərbaycanda sosial xidmətlərin təkmilləşdirilməsi ilə bağlı layihə və təkliflər təqdim etmək.

## 3. Təhsil proqramının strukturu

**3.1.** Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Sosial xidmətlərin təşkili | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |

**3.2.** Təhsil proqramı ixtisasdan (ixtisaslaşmadan) asılı olaraq 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master" in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | 54 |
| 3 | **Sosial xidmətin göstərilməsində etik prinsiplər**<br>*Bu fənn sosial işçinin peşə məsuliyyətini, müştəri ilə münasibətlərdə etikanın rolunu, peşəkar davranış kodeksinə əməl etmə qaydalarını və etik qərarvermə prosesini əhatə edir. Tədris zamanı tələbələr sosial xidmət sahəsində qarşılaşa biləcəkləri etik dilemmləri müəyyənləşdirməyi, onları həll etmə yollarını seçməyi, sosial ədalət, insan hüquqları, bərabərlik və məxfilik prinsiplərini real praktikaya tətbiq etməyi öyrənirlər. Fənn həmçinin sosial işin beynəlxalq etik standartları və milli normativ sənədlərlə uzlaşdırılmasını nəzərdən keçirir.* | 6 |
| 4 | **Sosial xidmət sahəsində qanunvericilik bazası**<br>*Sosial xidmət sahəsində qanunvericilik bazası fənni sosial xidmət fəaliyyətini tənzimləyən milli və beynəlxalq hüquqi-normativ sənədlərin öyrənilməsinə həsr olunub. Fənn sosial xidmət sisteminin hüquqi əsaslarını, sosial müdafiə, sosial təminat, uşaq, qadın, əlilliyi olan şəxslər, yaşlılar və digər həssas qrupların hüquqlarını qoruyan qanunvericilik aktlarını əhatə edir.* | 6 |
| 5 | **Sosial xidmət üçün sənədləşdirmə işi**<br>*Sosial xidmət fəaliyyətində keyfiyyətin və peşəkarlığın təmin olunması düzgün sənədləşdirmədən keçir. Sənədləşdirmə prosesi sosial işçinin fəaliyyətinin əsas tərkib hissəsi olmaqla, müştəri ilə aparılan işin mərhələlərini, qiymətləndirmə və müdaxilə tədbirlərini sistemli şəkildə əks* | |

| | | |
|---|---|---|
| | *etdirir. Tədris çərçivəsində tələbələr sosial xidmət sahəsində istifadə olunan əsas sənədlərin növləri, onların tərtibat və saxlanma qaydaları, məlumatların məxfiliyi prinsipi, həmçinin elektron sənədləşdirmə sistemlərinin imkanları ilə tanış olurlar.* | 6 |
| 6 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>*Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər.* | 6 |
| 7 | **Sosial xidmətlərin idarəolunması**<br>*Bu fənnin əsas məqsədi tələbələrdə sosial xidmət sahəsində idarəetmənin nəzəri əsaslarını və praktiki bacarıqlarını formalaşdırmaq, sosial xidmət müəssisələrinin fəaliyyətini effektiv şəkildə planlaşdırmaq və koordinasiya etmək qabiliyyəti yaratmaqdır. Mövzulara həmçinin sosial siyasətin həyata keçirilməsi mexanizmləri, idarəetmədə etik məsuliyyət, innovativ idarəetmə modelləri və xidmət keyfiyyətinin yüksəldilməsinə yönəlmiş metodlar daxildir.* | 6 |
| 8 | **Qurumlararası koordinasiya və inteqrasiya**<br>*Sosial xidmətlərin səmərəli təşkili və davamlılığı müxtəlif dövlət, qeyri-hökumət və ictimai qurumlar arasında qarşılıqlı əməkdaşlıq və koordinasiyadan asılıdır. Qurumlararası koordinasiya sosial siyasətin həyata keçirilməsində vahid yanaşmanın formalaşdırılmasına, xidmətlərin təkrarlanmasının qarşısının alınmasına və resursların optimal bölüşdürülməsinə xidmət edir. İnteqrasiya isə sosial, tibbi, təhsil və hüquq sahələrində fəaliyyət göstərən qurumların birgə iş mexanizmlərini və qarşılıqlı dəstək sistemlərini əhatə edir.* | 6 |
| 9 | **Sosial xidmətin strategiya və planlanması**<br>*Bu fənn sosial xidmət sahəsində strateji yanaşmaların və planlaşdırma proseslərinin nəzəri və praktiki əsaslarını öyrədir. Məzmununda sosial siyasət, sosial ehtiyacların müəyyənləşdirilməsi, xidmətlərin prioritet istiqamətlərinin seçilməsi, resursların səmərəli idarə olunması və sosial proqramların hazırlanması kimi məsələlər yer alır. Fənn tələbələrə sosial xidmət müəssisələrinin fəaliyyətində uzunmüddətli məqsədlərin formalaşdırılması, strateji qərarların qəbul edilməsi və planların həyata keçirilməsi bacarıqlarını qazandırır.* | 6 |
| 10 | **Beynəlxalq təcrübədə sosial xidmətin təşkili**<br>*Bu fənn müxtəlif ölkələrin sosial xidmət sistemlərinin quruluşu, idarəetmə modelləri və tətbiq olunan siyasətləri öyrənməyə yönəlib. Fənnin məqsədi magistr tələbələrinə sosial xidmətin beynəlxalq təcrübələrini müqayisəli şəkildə analiz etmə, müxtəlif ölkələrdə sosial müdafiə və rifah siyasətlərinin prinsiplərini anlama bacarığı qazandırmaqdır.* | 6 |

| | | |
|---|---|---|
| 11 | **Kəmiyyət və keyfiyyət tədqiqat metodları**<br>*Fənn sosial elmlərdə istifadə olunan elmi tədqiqat metodlarını öyrədir və həm kəmiyyət (sorğu, statistik analiz, anket və məlumatların riyazi təhlili), həm də keyfiyyət (müsahibə, müşahidə, fokus qruplar, kontent və hadisə analizi) yanaşmalarını əhatə edir. Tədris prosesində tələbələr tədqiqat dizaynının hazırlanması, tədqiqat suallarının formalaşdırılması, məlumatların toplanması və interpretasiyası, həmçinin nəticələrin elmi şəkildə təqdim olunması üzrə praktiki bacarıqlara yiyələnirlər.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | 18 |
| 12 | **a) Sosial xidmətin elmi-nəzəri əsasları**<br>*Bu fənn sosial xidmət fəaliyyətinin formalaşmasına və inkişafına təməl yaradan elmi-nəzəri prinsipləri öyrədir. Tələbələr sosial xidmətin mahiyyəti, məqsədləri, funksiyaları və əsas anlayışları ilə tanış olur, bu sahənin digər sosial elmlərlə qarşılıqlı əlaqəsini dərk edirlər. Fənn həm klassik, həm də müasir sosial iş nəzəriyyələrini, onların praktik tətbiq imkanlarını və sosial müdaxilə modellərini əhatə edir. Tədrisin məqsədi magistr tələbələrinə sosial xidmətin elmi əsaslarını mənimsətmək, sosial problemlərin analitik qiymətləndirilməsi və peşəkar yanaşma bacarığı formalaşdırmaqdır.*<br>**b) Sosial müdafiənin əsasları**<br>*Sosial müdafiə sistemi cəmiyyətin sosial rifahının təminində mühüm rol oynayır və əhalinin həssas qruplarının sosial risklərdən qorunmasına yönəlir. Tədris zamanı sosial təminat, sosial yardım, sosial sığorta, məşğulluq siyasəti və sosial xidmət kimi əsas istiqamətlər öyrənilir. Məzmununda həm milli, həm də beynəlxalq sosial müdafiə modelləri, onların təşkilati və hüquqi əsasları təhlil olunur. Fənn magistr tələbələrinə sosial müdafiə siyasətlərinin işlənməsi, həyata keçirilməsi və qiymətləndirilməsi üçün zəruri nəzəri bilik və praktik bacarıqlar qazandırır.* | 6 |
| 13 | **a) Fərdi sosial proqramların hazırlanması**<br>*Fərdi sosial proqramların işlənməsi sosial xidmət fəaliyyətində ehtiyaclara əsaslanan, məqsədyönlü və sistemli yanaşmanı təmin edir. Tədris prosesində fərdin sosial vəziyyətinin qiymətləndirilməsi, problemlərin diaqnostikası, məqsədlərin müəyyənləşdirilməsi, xidmət planının tərtibi və nəticələrin monitorinqi kimi mərhələlər öyrənilir. Məzmununda fərdi yanaşmanın prinsipləri, etik normalar, peşəkar məsuliyyət və müştəri ilə əməkdaşlıq bacarıqları da xüsusi yer tutur. Fənn magistr tələbələrinə sosial xidmət müştəriləri üçün fərdi inkişaf və müdaxilə proqramlarını hazırlamaq, həyata keçirmək və qiymətləndirmək bacarığı qazandırır.*<br>**b) Sosial risk faktorlarının təhlili**<br>*Cəmiyyətin sosial sabitliyinə və fərdlərin rifahına təsir edən risk amillərinin* | 6 |

| | | |
|---|---|---|
| | *müəyyənləşdirilməsi və təhlili bu fənnin əsas məqsədidir. Tədris zamanı sosial, iqtisadi, psixoloji və demoqrafik risk faktorlarının mahiyyəti, onların sosial problemlərin yaranmasında rolu və qarşısının alınması yolları öyrənilir. Fənn həm fərdi, həm də icma səviyyəsində risklərin qiymətləndirilməsi, idarə olunması və azaldılması üzrə nəzəri və praktiki biliklər verir. Magistr tələbələri sosial risklərin təhlilinə əsaslanaraq sosial siyasət və xidmət strategiyalarının formalaşdırılmasına yönəlik bacarıqlar qazanırlar.* | |
| 14 | **a) Sosial xidmətdə kommunikasiya bacarıqları**<br>*Bu fənn sosial xidmət prosesində effektiv ünsiyyətin qurulması və idarə olunması bacarıqlarını formalaşdırmağa yönəlir. Tədris zamanı empatiya, aktiv dinləmə, qeyri-verbal siqnalların düzgün qavranılması, qarşılıqlı etimadın yaradılması və münaqişələrin kommunikativ üsullarla həlli kimi mövzular öyrənilir. Məzmununda fərdi, qrup və institusional səviyyədə kommunikasiya formaları, həmçinin mədəni və etik amillərin ünsiyyətə təsiri xüsusi yer tutur. Fənn magistr tələbələrinə sosial xidmət fəaliyyətində səmərəli və peşəkar ünsiyyət qurmaq bacarığı qazandırır.* | 6 |
| | **b) Fövqəladə hallarda sosial xidmətin təşkili**<br>*Fənnin məqsədi fövqəladə hallarda əhalinin sosial müdafiəsini təmin etmək üçün sosial xidmət fəaliyyətinin təşkili prinsiplərini və mexanizmlərini öyrətməkdir. Tədris prosesi çərçivəsində təbii fəlakətlər, silahlı münaqişələr, epidemiyalar və digər böhran vəziyyətlərində sosial dəstək sistemlərinin təşkili, psixososial yardımın göstərilməsi, risk qruplarının müəyyənləşdirilməsi və resursların idarə olunması məsələləri öyrənilir. Məzmununda həm milli, həm də beynəlxalq təcrübələr, humanitar yardım modelləri və sosial xidmətin koordinasiya formaları təhlil olunur. Fənn magistr tələbələrinə fövqəladə vəziyyətlərdə sosial müdaxilə, planlaşdırma və əməkdaşlıq bacarıqları qazandırır.* | |
| | **Təcrübə** | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 |
| **CƏMİ** | | **90** |

**4. Proqramın və hər bir fənnin təlim nəticələri**

**4.1.** Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallara, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

**Sosial müdafiənin təşkili ixtisaslaşması üzrə** aşağıdakı infrastruktur və resurs tələbləri də nəzərə alınmalıdır:

- Sosial müdafiə sistemlərinin modellərini öyrənmək üçün simulyasiya proqramları və hüquqi normativ sənədlərə çıxış imkanları;
- Əmək və sosial müdafiə sahəsi üzrə real-case analizlərini işləməyə imkan verən proqram təminatı və məlumat bazaları;
- Dövlət və qeyri-dövlət qurumları ilə onlayn inteqrasiya platformaları (məsələn, məşğulluq, sosial yardım sistemləri).

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Sosial iş ixtisası üzrə məzunlar əmək və sosial müdafiə, gənclərlə iş, təhsil, səhiyyə, hüquq, reabilitasiya, psixi sağlamlıq, sosial xidmətlərin təşkili və idarə olunması, icma əsaslı və beynəlxalq sosial proqramlar kimi müxtəlif sahələrdə fəaliyyət göstərən dövlət, qeyri-

hökumət və özəl qurumlarda peşəkar sosial işçi, mütəxəssis, baş mütəxəssis və struktur bölmə rəhbərləri kimi fəaliyyət göstərə bilərlər.

**Sosial xidmətlərin təşkili ixtisaslaşması üzrə** məzunlar aşağıdakı sahələrdə qeyd olunan müxtəlif peşələrdə işləyə biləcəklər:

- dövlət və özəl sosial xidmət agentliklərində sosial xidmətlərin təşkili üzrə mütəxəssis, keyfiyyətə nəzarətçi;
- sosial xidmət müəssisələrinin idarəetmə strukturlarında idarəçi, sosial proqramlar üzrə rəhbər;
- sosial xidmət layihələrinin planlaşdırılması və icrası sahəsində layihə meneceri, monitorinq və qiymətləndirmə üzrə mütəxəssis;
- beynəlxalq və yerli QHT-lərdə təchizat və resurs üzrə mütəxəssis, donor əlaqələri üzrə menecer;
- icma əsaslı xidmətlər sahəsində icma sosial işçisi, icma əlaqələndiricisi.

**6.2.** Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

**6.3.** Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

**6.4.** Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

### Sosial xidmətlərin təşkili ixtisaslaşması üzrə:

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Elmi etika prinsiplərinə və akademik yazı standartlarına riayət etməklə sahə üzrə məlumatların təhlilini həyata keçirməyi, həmçinin müvafiq layihələrin planlaşdırılması, idarə olunması və nəticələrinin qiymətləndirilməsi prosesini səmərəli şəkildə təşkil etməyi bacaracaq. |
| **PTN 2.** Sosial xidmətlər, sosial dəstək tədbirləri və dövlət sosial yardımı almaq üçün müraciət etmiş vətəndaşların qəbulunun təşkili xüsusiyyətlərini bacaracaq. |
| **PTN 3.** Əhalinin sosial müdafiəsi və sosial xidmətlər sahəsində dövlət siyasətinin əsas istiqamətlərini biləcək. |
| **PTN 4.** Sosial xidmətlərin göstərilməsi qaydalarını, fərdi ehtiyacları və fərdi proqramları müəyyən etməyi bacaracaq. |
| **PTN 5.** Sosial xidmət göstərənlərin məqsəd, vəzifə və funksiyalarını biləcək. |
| **PTN 6.** Vətəndaşların həyat şəraitini pisləşdirən, onların əsas həyati tələbatlarını müstəqil şəkildə təmin etmək imkanlarını azaldan səbəbləri diaqnostika edə biləcək. |
| **PTN 7.** Sosial xidmətlərin və dəstəyin göstərilməsi üçün tələb olunan sənədlərin növlərini, strukturunu və məzmununu biləcək. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Layihələrin idarə edilməsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |

| |
|---|
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| Sosial xidmətin göstərilməsində etik prinsiplər fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1. Sosial xidmətin mahiyyətini və onun etik prinsiplərini izah edib, peşə fəaliyyətində etik davranış qaydalarının əhəmiyyətini dərk edəcək. |
| FTN2. Sosial xidmət mütəxəssisinin peşə etikası kodeksinin əsas müddəalarını tətbiq edə biləcək. |
| FTN3. Müxtəlif sosial xidmət situasiyalarında etik dilemmləri müəyyənləşdirəcək və onları həll etmək üçün adekvat qərarvermə bacarığı nümayiş etdirəcək. |
| FTN4. Sosial xidmət prosesində şəxsi dəyərlərlə peşə dəyərlərini fərqləndirə biləcək və etik məsuliyyət daşıyacaq. |
| FTN5. Müştəri ilə münasibətlərdə məxfilik, hörmət, dürüstlük və ədalət prinsiplərinə riayət edəcək. |

| Sosial xidmət sahəsində qanunvericilik bazası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Sosial xidmətin hüquqi əsaslarını və bu sahəni tənzimləyən milli qanunvericilik aktlarını izah edəcək. |
| FTN 2. Sosial xidmət haqqında Azərbaycan Respublikasının Qanununun məqsəd və prinsiplərini şərh edəcək. |
| FTN 3. Sosial müdafiə, uşaq hüquqları, əlilliyi olan şəxslərin hüquqları və gender bərabərliyi ilə bağlı normativ-hüquqi sənədləri təhlil edəcək. |
| FTN 4. Sosial xidmət sahəsində dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının hüquqi statusunu və səlahiyyətlərini müəyyənləşdirəcək. |

| |
|---|
| FTN 5. Sosial xidmətlərin göstərilməsi zamanı hüquqi məsuliyyət və etik-hüquqi prinsiplər arasında əlaqəni dəyərləndirəcək. |
| FTN 6. Sosial xidmət fəaliyyətində hüquqi sənədlərlə işləmək bacarığına yiyələnəcək (müqavilələr, ərizələr, aktlar, hesabatlar və s.). |

| Sosial xidmət üçün sənədləşdirmə işi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Sosial xidmət sahəsində sənədləşdirmənin hüquqi, etik və peşəkar əsaslarını dərindən mənimsəyəcək. |
| FTN 2. Sosial iş prosesinin müxtəlif mərhələləri üçün tələb olunan sənədləri düzgün və effektiv şəkildə hazırlayacaq. |
| FTN 3.Məlumatların məxfiliyinin qorunması və istifadəçi razılığı prinsiplərinə uyğun sənədləşdirmə aparacaq. |
| FTN 4. Sosial xidmət təşkilatlarında sənəd dövriyyəsini təşkil etmək və hesabatların hazırlanması bacarıqlarını inkişaf etdirəcək. |
| FTN 5. Real iş şəraitində sənədləri təhlil etmək, qiymətləndirmək və sosial xidmətin keyfiyyətinin yüksəldilməsi üçün tətbiq edəcək. |

| Sosial xidmətlərin idarəolunması fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1. Sosial xidmətlərin idarəolunmasının mahiyyətini, məqsəd və prinsiplərini izah edəcək. |
| FTN2. Sosial xidmət müəssisələrinin idarəetmə strukturlarını və funksiyalarını təhlil edəcək. |
| FTN3. Sosial xidmətlər sistemində planlaşdırma, təşkiletmə, motivasiya və nəzarət mərhələlərinin qarşılıqlı əlaqəsini izah edəcək |
| FTN4. Sosial xidmət təşkilatlarında qərarvermə prosesini və rəhbərlik üslublarını fərqləndirəcək. |
| FTN5. İnsan resurslarının idarəolunması, komanda işi və əməkdaşlıq prinsiplərini sosial xidmət kontekstində tətbiq edəcək. |
| FTN6. Sosial xidmətlərin idarə edilməsində dövlət və qeyri-dövlət sektorları arasında əməkdaşlıq mexanizmlərini dəyərləndirəcək. |

| Qurumlararası koordinasiya və inteqrasiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN1. Qurumlararası koordinasiya və inteqrasiyanın sosial xidmət sistemində rolunu və əhəmiyyətini izah edəcək. |
| FTN2. Sosial xidmətlərin göstərilməsində müxtəlif dövlət, bələdiyyə və qeyri-hökumət qurumlarının funksiyalarını və məsuliyyətlərini fərqləndirəcək. |
| FTN3. Sosial problemlərin həllində çoxsektorlu əməkdaşlıq modellərini təhlil edəcək. |
| FTN4. Qurumlararası əməkdaşlıq mexanizmlərinin (məlumat mübadiləsi, birgə planlaşdırma, koordinasiya şuraları və s.) tətbiqini izah edəcək. |
| FTN5. Müxtəlif sosial xidmət sahələrində (təhsil, səhiyyə, hüquq-mühafizə, məşğulluq və s.) inteqrativ yanaşmaları müəyyənləşdirəcək. |
| FTN6. Qurumlararası koordinasiyanın hüquqi və institusional əsaslarını təhlil edəcək. |

| Sosial xidmətin strategiya və planlanması fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN1. Sosial xidmətin strateji planlaşdırılmasının mahiyyətini, məqsəd və prinsiplərini izah edəcək. |
| FTN2. Sosial siyasət və sosial xidmət strategiyaları arasında qarşılıqlı əlaqəni təhlil edəcək. |
| FTN3. Sosial xidmət sistemində uzunmüddətli və qısamüddətli planlaşdırma mərhələlərini fərqləndirəcək. |
| FTN4. Sosial xidmətlərin planlaşdırılmasında ehtiyacların qiymətləndirilməsi metodlarını tətbiq edə biləcək. |
| FTN5. Sosial xidmət proqramlarının və layihələrinin hazırlanması, icrası və monitorinqi proseslərini izah edəcək. |
| FTN6. Sosial xidmət strategiyalarının formalaşmasında dövlət, özəl və qeyri-hökumət sektorlarının rolunu dəyərləndirəcək. |

| Beynəlxalq təcrübədə sosial xidmətin təşkili fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN1. Müxtəlif ölkələrdə sosial xidmətlərin təşkili modellərini və onların xüsusiyyətlərini izah edəcək. |
| FTN2. Sosial xidmətin beynəlxalq səviyyədə formalaşma tarixi və inkişaf mərhələlərini təhlil edəcək. |
| FTN3. Sosial rifah dövlətləri modelinə əsaslanan sosial xidmət sistemlərini müqayisə edəcək. |
| FTN4. BMT, UNICEF, WHO, IFSW kimi beynəlxalq təşkilatların sosial xidmətin inkişafındakı rolunu və töhfəsini izah edəcək. |
| FTN5. Xarici ölkələrin sosial xidmət təcrübələrindən milli sistem üçün uyğun nümunələr müəyyənləşdirəcək. |
| FTN6. Müxtəlif mədəniyyət və sosial mühitlərdə sosial xidmətin təşkili prinsiplərini fərqləndirəcək. |

| Kəmiyyət və keyfiyyət tətqiqat metodları fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN1. Sosial elmlərdə tədqiqatın məqsədini, mərhələlərini və metodoloji əsaslarını izah edəcək. |
| FTN2. Kəmiyyət və keyfiyyət tədqiqat yanaşmaları arasındakı fərqləri və oxşarlıqları müəyyənləşdirəcək. |
| FTN3. Sosial tədqiqatda problem, hipotez və tədqiqat suallarını formalaşdıra biləcək. |
| FTN4. Kəmiyyət tədqiqatlarında məlumat toplama alətlərini (anket, sorğu, statistik məlumatlar və s.) hazırlayır və tətbiq edəcək. |
| FTN5. Keyfiyyət tədqiqatlarında istifadə olunan metodları (müsahibə, müşahidə, fokus qruplar və s.) izah edir və tətbiq edə biləcək. |

| Sosial xidmətin elmi-nəzəri əsasları fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN1. Sosial xidmətin elm kimi formalaşmasının tarixi və inkişaf mərhələlərini izah edəcək. |
| FTN2. Sosial xidmətin elmi-nəzəri əsaslarını və onun digər sosial elmlərlə qarşılıqlı əlaqəsini təhlil edəcək. |
| FTN3. Sosial xidmət fəaliyyətini yönləndirən əsas nəzəri yanaşmaları (sistem nəzəriyyəsi, ekoloji model, humanist yanaşma və s.) izah edəcək. |
| FTN4. Sosial problemlərin elmi-nəzəri baxımdan araşdırılması metodlarını müəyyənləşdirəcək. |
| FTN5. Sosial xidmətin prinsipləri, funksiyaları və məqsədləri haqqında nəzəri biliklərə yiyələnəcək. |

| Sosial müdafiənin əsasları fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN1. Sosial müdafiə sisteminin mahiyyətini, məqsəd və funksiyalarını izah edəcək. |
| FTN2. Sosial müdafiə siyasətinin formalaşmasına təsir edən sosial, iqtisadi və hüquqi amilləri təhlil edəcək. |
| FTN3. Sosial təminat, sosial yardım və sosial xidmət anlayışlarını fərqləndirəcək. |
| FTN4. Sosial müdafiə sistemində dövlətin, özəl sektorun və vətəndaş cəmiyyətinin rolunu müəyyənləşdirəcək. |
| FTN5. Əhalinin müxtəlif qruplarının (uşaqlar, yaşlılar, əlilliyi olan şəxslər, aztəminatlı ailələr və s.) sosial müdafiə ehtiyaclarını qiymətləndirəcək. |
| FTN6. Sosial müdafiə mexanizmlərinin (pensiya, müavinət, subsidiya, sığorta və s.) fəaliyyət prinsiplərini izah edəcək. |

| Fərdi sosial proqramların hazırlanması fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN1. Fərdi sosial proqram anlayışını, məqsədini və sosial xidmət prosesindəki rolunu izah edəcək. |
| FTN2. Müştərinin sosial vəziyyətinin, ehtiyaclarının və resurslarının qiymətləndirilməsi mərhələlərini müəyyənləşdirəcək. |
| FTN3. Fərdi sosial planlaşdırma və müdaxilə prosesinin əsas prinsiplərini izah edəcək. |
| FTN4. Müştəri ilə əməkdaşlıq və iştirakçılıq prinsiplərinə əsaslanaraq fərdi proqram hazırlayacaq. |
| FTN5. Sosial problemin diaqnozuna uyğun məqsəd, vəzifə və fəaliyyət istiqamətlərini formalaşdıracaq. |

| Sosial risk faktorlarının təhlili fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN1. Sosial risk anlayışını və onun fərdi, ailəvi və ictimai səviyyədə təzahür formalarını izah edəcək. |
| FTN2. Sosial risklərin yaranmasına səbəb olan əsas sosial, iqtisadi, psixoloji və ekoloji amilləri təhlil edəcək. |
| FTN3. Sosial risklərin təsnifatını (yoxsulluq, işsizlik, zorakılıq, əlillik, asılılıqlar, marginal qruplar və s.) müəyyənləşdirəcək. |
| FTN4. Sosial risklərin fərdlərin və ailələrin rifahına təsirini qiymətləndirəcək. |
| FTN5. Sosial risklərin erkən aşkarlanması və profilaktik tədbirlərin planlaşdırılması bacarığı nümayiş etdirəcək. |
| FTN6. Sosial risk qrupları ilə iş zamanı riskin idarəolunması strategiyalarını izah edəcək. |

| Sosial xidmətdə kommunikasiya bacarıqları fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN1. Sosial xidmətdə kommunikasiya anlayışını, məqsəd və funksiyalarını izah edəcək. |
| FTN2. Effektiv ünsiyyətin əsas prinsiplərini və maneələrini təhlil edəcək. |
| FTN3. Müştəri ilə empatik, etibarlı və hörmətə əsaslanan münasibət qurmaq bacarığı nümayiş etdirəcək. |
| FTN4. Fərdi, ailəvi və qrup səviyyəsində ünsiyyət strategiyalarını fərqləndirəcək. |
| FTN5. Aktiv dinləmə, açıq suallar vermə və qeyri-verbal kommunikasiya üsullarını praktikada tətbiq edəcək. |

| Fövqəladə hallarda sosial xidmətin təşkili fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN1. Fövqəladə hallar anlayışını, növlərini və onların sosial nəticələrini izah edəcək. |
| FTN2. Fövqəladə hallarda sosial xidmətin məqsədini, vəzifələrini və əsas prinsiplərini müəyyənləşdirəcək. |
| FTN3. Təbii fəlakətlər, müharibə, miqrasiya, epidemiya və digər risk vəziyyətlərində sosial müdaxilə mexanizmlərini izah edəcək. |
| FTN4. Fövqəladə hallarda zərərçəkmiş əhali qruplarının (uşaqlar, yaşlılar, qadınlar, əlilliyi olan şəxslər və s.) sosial ehtiyaclarını qiymətləndirəcək. |
| FTN5. Humanitar yardım və sosial dəstək proqramlarının təşkili prosesini təhlil edəcək. |
| FTN6. Fövqəladə hallarda psixososial yardımın və sosial reabilitasiyanın əsas istiqamətlərini müəyyənləşdirəcək. |

| Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5. Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

Əlavə 2

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisaslaşmanın təhsil proqramının təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyənləşdirməlidir.

| **Tədris fəaliyyətinin (fənnin) adı** | **Proqramın təlim nəticələri** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **PTN 1** | **PTN 2** | **PTN 3** | **PTN 4** | **PTN 5** | **PTN 6** | **PTN 7** |
| Akademik yazı və etika | x | | | | | | |
| Layihələrin idarə edilməsi | x | | | | | | |
| Sosial xidmətin göstərilməsində etik prinsiplər | | | | | x | | |
| Sosial xidmət sahəsində qanunvericilik bazası | | x | | | | | |
| Sosial xidmət üçün sənədləşdirmə işi | | | | | | | x |
| Ali məktəb pedaqogikası və psixologiya | x | | | | | | |
| Sosial xidmətlərin idarəolunması | | | x | | | | |
| Qurumlararası koordinasiya və inteqrasiya | | x | | | | | |
| Sosial xidmətin strategiya və planlanması | | | | | | x | |
| Beynəlxalq təcrübədə sosial xidmətin təşkili | | x | | | | | |
| Kəmiyyət və keyfiyyət tədqiqat metodları | x | | | | | | |
| Sosial xidmətin elmi-nəzəri əsasları | | | | | x | | |
| Fərdi sosial proqramların hazırlanması | | | | x | | | |
| Sosial xidmətdə kommunikasiya bacarıqları | | | | | | x | |
| Elmi-pedaqoji təcrübə | | x | | | | | x |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ______________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ______________ **Namiq Qafarov**

**ADMİU-nun Sosial-mədəni fəaliyyət kafedrasının müdiri:** ______________ **Sevinc Əskərova**

**ADMİU-nun Kulturologiya fakültəsinin dekanı:** ______________ **Səyavuş Məhişov**